AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE STRUGGLE OF AZERBAIJANI CITIES AGAINST ARMENIAN FASCISM (ON THE EXAMPLE OF BAKU, SHUSHA, GANJA, AND AGHDAM)

**Saida Guliyeva**[1]

**UDC:** 94(479.24)"1990/2020"(=163.41)
**LBC:** 63.3(5Aze)64-8:66.3(5Arm):67.3(2Aze)-18
**HoS:** 91
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.30-38

**Keywords:**

Armenian fascism,
The ethnic cleansing,
Azerbaijan,
Karabakh war,
The people's struggle,
The national identity,
Shusha,
Ganja,
Aghdam

## ABSTRACT

The article explores the resistance of the Azerbaijani people in response to the policy of ethnic cleansing and genocide carried out by Armenian nationalists, as well as the role of cities that became centers of this struggle. The study analyzes the geographical location of these cities, their organizational capacities, population activity, and other functions, a comparative approach is also presented using the "hero city" model. The influence of cities on the course of the struggle is assessed through the example of the occupation and liberation of Shusha and Aghdam, and their historical and spiritual significance is examined in connection with the ideas of martyrdom, self-sacrifice, and national pride.

The research concludes that in various historical periods, Shusha, Ganja, Aghdam, and other cities served not only as important military-strategic points but also as significant centers of national resistance, willpower, and historical memory.

Since this topic has not yet been systematically studied in Azerbaijani historiography, the research makes an important contribution to filling this academic gap and rethinking the spirit of resistance of the Azerbaijani people.

[1] PhD in History, Associate Professor,
Faculty of History, Baku State University; Baku, Azerbaijan
E-mail: saidaquliyeva@bsu.edu.az
https://orcid.org/0000-0003-4320-3425
**To cite this article:** Guliyeva, S. [2025]. The Struggle of Azerbaijani Cities against Armenian Fascism (on the Example of Baku, Shusha, Ganja, and Aghdam). *History of Science journal*, 6(4), pp.30-38.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.30-38

***Article history:***
*Received: 18.06.2025*
*Accepted: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN ERMƏNİ FAŞİZMİNƏ QARŞI MÜBARİZƏSİ (BAKI, ŞUŞA, GƏNCƏ VƏ AĞDAM NÜMUNƏSİNDƏ)

**Səidə Quliyeva**[1]

**UOT:** 94(479.24)"1990/2020"(=163.41)
**KBT:** 63.3(5Aze)64-8:66.3(5Arm):67.3(2Aze)-18
**HoS:** 91
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.30-38

**Açar sözlər:**

Erməni faşizmi,
Etnik təmizləmə,
Azərbaycan,
Qarabağ müharibəsi,
Xalqın mübarizəsi,
Milli kimlik,
Şuşa,
Gəncə,
Ağdam

## ANNOTASİYA

Məqalədə erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasəti zamanı Azərbaycan xalqının göstərdiyi müqavimət və bu mübarizənin mərkəzlərinə çevrilmiş şəhərlərin rolu araşdırılır. Tədqiqatda bu şəhərlərin coğrafi mövqeyi, təşkilati imkanları, əhalinin fəallığı və digər funksiyaları təhlil edilmiş, "qəhrəman şəhər" modeli ilə müqayisəli yanaşma təqdim olunmuşdur. Şuşa və Ağdamın işğalı və azad olunması nümunəsində şəhərlərin mübarizənin gedişatına təsiri qiymətləndirilmiş, şəhidlik, fədakarlıq və milli qürur ideyaları ilə bağlı tarixi-mənəvi yükləri araşdırılmışdır.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, müxtəlif tarixi dövrlərdə Şuşa, Gəncə, Ağdam və digər şəhərlər yalnız hərbi-strateji əhəmiyyətə görə deyil, həm də milli iradə və müqavimət, həmçinin tarixi yaddaş baxımından önəmli mərkəzlər kimi çıxış etmişlər.

Mövzu Azərbaycan tarixşünaslığında indiyədək sistemli şəkildə araşdırılmadığı üçün bu tədqiqat həm elmi boşluğu doldurmaq, həm də Azərbaycan xalqının mübarizə ruhunu yenidən düşünmək baxımından əhəmiyyətlidir.

[1] Tarix üzrə fəlsəfə doktoru, Dosent,
Tarix fakültəsi, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: saidaquliyeva@bsu.edu.az
https://orcid.org/0000-0003-4320-3425
**Məqaləyə istinad:** Quliyeva, S. [2025]. Azərbaycan Şəhərlərinin Erməni Faşizminə Qarşı Mübarizəsi (Bakı, Şuşa, Gəncə və Ağdam Nümunəsində). *History of Science jurnalı*, 6(4), səh.30-38.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.30-38

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 18.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 21.07.2025*
*Çapa qəbul edilmişdir: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# БОРЬБА АЗЕРБАЙДЖАНСКИХ ГОРОДОВ ПРОТИВ АРМЯНСКОГО ФАШИЗМА (НА ПРИМЕРЕ БАКУ, ШУШИ, ГЯНДЖИ И АГДАМА)

**Саида Гулиева**[1]

**УДК:** 94(479.24)"1990/2020"(=163.41)
**ББК:** 63.3(5Азр)64-8:66.3(5Арм):67.3(2Азр)-18
**HoS:** 91
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.30-38

**Ключевые слова:**

Армянский фашизм, Этническая чистка, Азербайджан, Карабахская война, Народная борьба, Национальная идентичность, Шуша, Гянджа, Агдам

## АННОТАЦИЯ

В статье исследуется сопротивление азербайджанского народа на политику этнических чисток и геноцида, проводимую армянскими националистами, а также роль городов, ставших центрами этой борьбы. В исследовании проанализированы географическое положение этих городов, их организационные возможности, активность населения и другие функции, также представлен сравнительный подход с использованием модели “героического города”. На примере оккупации и освобождения Шуши и Агдама дана оценка влияния городов на ход борьбы, рассмотрены их историко-духовная нагрузка, связанная с идеями шехидства, самопожертвования и национальной гордости.

В результате исследования установлено, что в разные исторические периоды Шуша, Гянджа, Агдам и другие города выступали не только как важные военно-стратегические пункты, но и как значимые центры национального сопротивления, воли и исторической памяти.

Так как данная тема до сих пор не рассматривалась системно в азербайджанском историографическом дискурсе, исследование представляет собой важный вклад в восполнение научного пробела и осмысление духа сопротивления азербайджанского народа.

[1] Доктор философии по истории, Доцент,
Исторический факультет, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: saidaquliyeva@bsu.edu.az
https://orcid.org/0000-0003-4320-3425
**Цитировать статью:** Гулиева, С. [2025]. Борьба Азербайджанских Городов Против Армянского Фашизма (На Примере Баку, Шуши, Гянджи и Агдама). *Журнал History of Science*, *6*(4), с.30-38.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.30-38

**История статьи:**
*Статья поступила в редакцию: 18.06.2025*
*Отправлена на доработку: 21.07.2025*
*Принята для печати: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*Tədqiqat Vətən müharibəsinin 5 illiyinə həsr edilir.*

## 1.Giriş

Məlumdur ki, Rusiyanın Qafqazı işğal etməsindən sonra ermənilər azərbaycanlıların tarixi ərazilərinə kütləvi şəkildə köçürülməyə başlamışdır. Bununla da, Qafqazda yerli xalqlara qarşı etnik toqquşmalar, etnik təmizləmələr və soyqırımları başlamışdır. Bir sıra hallarda Rusiya ilə eyni mövqedə çıxış edən ermənilər XX əsrin əvvəllərində və sonlarında Azərbaycan ərazilərini işğal etmiş və etnik təmizləmə aparmışlar. Bu proses çoxsaylı mənbələrdə əks olunmuş və tədqiqatlarda sübut edilmişdir [İsgəndərov, 2006; Mahmudov & Şükürov, 2005; Məmmədova, 2006; Mustafa & Arzumanli, 1998; Mustafa, 2022; Zeynalov & Muxtarova, 2021].

Erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində Azərbaycan xalqı öz dəyərlərini və torpaqlarını qorumaq üçün müxtəlif mərhələlərdə cəsarətlə müqavimət göstərmişdir. Bu mübarizənin əsas ocaqları kimi çıxış edən şəhərlər yalnız hərbi əməliyyatların getdiyi coğrafi məkanlar deyil, eyni zamanda milli iradənin simvoluna çevrilmiş strateji mərkəzlər olmuşdur. Əlbəttə, şəhərlər dedikdə orada yaşayan əhalinin potensialı, mübarizənin təşkili, şəhərlərin coğrafi-strateji mövqeyi, döyüş qərargahlarının yerləşməsi, şəhərin iqtisadi və humanitar məsələlərdə digər ərazilərə köməyi və digər xüsusiyyətləri nəzərdə tutulur.

Tədqiqatın məqsədi erməni faşizminə qarşı Azərbaycan xalqının mübarizəsində mühüm rolu olan şəhərləri müəyyənləşdirmək, onların mübarizə mərkəzi kimi rolunu və tarixi funksiyasını üzə çıxartmaq və təhlil etməkdir. Araşdırma zamanı müxtəlif dövrlərdə seçilən şəhərlərdə baş verən proseslər ümumiləşdirilmiş, Bakı, Şuşa, Gəncə, Ağdam və Tərtər (Tərtər şəhərinin erməni faşizminə qarşı mübarizəsi barədə ayrıca tədqiqatımız vardır) kimi şəhərlərin mübarizə tarixinə nəzər salınmışdır. Bu şəhərlərin coğrafi-strateji mövqeləri ayrıca təhlil edilmişdir. Çünki müharibə zamanı məkanın relyefi, kommunikasiya imkanları və loqistik potensialı döyüşlərin gedişatına birbaşa təsir göstərən amillər sırasındadır.

Eyni zamanda, Qarabağ müharibəsində iştirak edən şəhərlərlə II Dünya müharibəsində formalaşmış "qəhrəman şəhər" modeli arasında məzmun və funksional baxımdan mühüm oxşarlıqlar müşahidə olunur. Hər iki halda döyüşlərdə fərqlənən şəhərlər yalnız fiziki məkan deyil, milli yaddaşın, kollektiv müqavimət ruhunun və ideoloji davamlılığın daşıyıcısı kimi çıxış edir. Bununla belə, Qarabağ nümunəsi yalnız keçmişin xatırlanması deyil, həm də tarixin bərpası, dəyərlərin və tarixi yaddaşın qorunması prosesidir.

Azərbaycan tarixşünaslığında bu istiqamətdə müəyyən yanaşmalar olsa da, mövzu sistemli şəkildə araşdırılmamış, şəhərlərin erməni faşizminə qarşı mübarizəsinin təhlili aparılmamışdır. Bu baxımdan təqdim olunan tədqiqat yalnız aktuallıq baxımından deyil, həm də Vətən tarixşünaslığına töhfə kimi qiymətləndirilə bilər. Tədqiqat zamanı materiallar müqayisəli təhlil olunmuş, hər bir şəhərin mübarizə prosesi öz xüsusiyyətləri ilə araşdırılmışdır.

## 2.Bakı: Erməni faşizminə qarşı mübarizədə strateji güc mərkəzi

Qarabağ müharibələri dövründə Bakı şəhəri yalnız Azərbaycanın paytaxtı kimi deyil, həm də strateji, siyasi, iqtisadi və hərbi mərkəz kimi mühüm rol oynamışdır. 1905-1906-cı illərdə qırğınların baş verdiyi, siyasi danışıqlar və hərbi əməliyyatlar nəticəsində ermənilərin məğlub edildiyi mərkəz olmuşdur. 1918-ci ildə sentyabrın 15-də Bakının azad edilməsi ilə demək olar ki, mart ayından başlayan soyqırımların qarşısı alınmış və burada dövlət hakimiyyəti qurulmuşdur [Süleymanov, 2014]. XX əsrin 90-cı illərində və 2020-ci ildə baş verən müharibələr zamanı Bakı həm dövlətin müdafiə qərarlarının qəbul edildiyi məkan, həm də hərbi təchizat və loqistik dəstəyin əsas bazası olmuşdur. Lakin qeyd etmək vacibdir ki, 90-cı illərdə Bakı daha çox siyasi hadisələrin baş verdiyi mərkəz olaraq müharibədə mübarizəni təşkil etməkdə çətinliklər yaşamışdır. Xüsusilə, 20 Yanvar faciəsi [Balayev,

2000, s.16-34], hakimiyyət dəyişiklikləri, dövlət çevrilişinə cəhdlər Bakının əsas mübarizə mərkəzi rolunu aradan qaldırmış, cəbhədəki hadisələrlə əlaqəsini zəiflətmişdi. 90-cı illərdə Bakının Qarabağ müharibəsində iştirakını 2020-ci ildə başlayan müharibə ilə müqayisə etdikdə fərqli mənzərə ilə qarşılaşırıq. Belə ki, şəhər siyasi, hərbi, diplomatik mübarizənin mərkəzi olaraq hərtərəfli fəaliyyət göstərmişdir. Eyni zamanda şəhərdən cəbhəyə göndərilən yardım kampaniyaları və əhalinin yüksək mənəvi səfərbərliyi Bakının milli birliyin simvoluna çevrilməsinə səbəb olmuş, əhali arasında güclü ictimai həmrəylik formalaşmışdır. Beləliklə, Bakı Azərbaycan xalqının erməni faşizminə qarşı mübarizəsində yalnız arxa cəbhə deyil, həm də milli müqavimət iradəsinin daşıyıcısı və strateji güc mərkəzi kimi tarixdə öz yerini tutmuşdur.

**3.Şuşa: Azərbaycan tarixində erməni faşizminə qarşı mübarizə və zəfər qalası**

Şuşa şəhəri tarix boyu erməni millətçilərinin işğal, soyqırımı cinayəti və etnik təmizləmə siyasətinə qarşı əsas milli müqavimət mərkəzi olmuşdur (Şuşa şəhərinin erməni faşizminə qarşı mübarizəsi barədə ayrıca tədqiqatımız olduğu üçün burada əsas tezisləri təqdim edirik).

Şəhər yerləşdiyi coğrafi mövqeyinə görə qayalığın üstündə təbii qaladır. Belə mövqe şəhərə həm ətraf əraziləri nəzarətdə saxlamaq imkanları verir, həm də müdafiə imkanlarını artırır. Strateji mövqeyinə görə "Şuşaya nəzarət edən Qarabağa nəzarət edir!" fikri bütün zamanlar üçün aktual olmuşdur.

1905–1906-cı illərdə "Daşnaksütyun" partiyasının rəhbərlik etdiyi erməni silahlı dəstələri Şuşada soyqırımlar törətmiş, lakin xalqın müqaviməti qarşısında geri çəkilmişlər. Ziyalıların təşəbbüsü ilə yaradılmış "Difai" təşkilatının Şuşa komitəsi şəhərdə və qəzanın kəndlərində silahlı müqavimətin əsas təşkilatçısı olmuşdur [Əzizov, 2009; Məmmədov, 2005, s.24-145]. Bu dövrdə şəhər müqavimət qalası kimi mövqeyini möhkəmləndirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə də erməni təcavüzünə qarşı mübarizənin ön cəbhəsi olan Şuşa Qarabağ general-qubernatorluğunun mərkəzi idi. 1905–1906-cı illərdə erməni silahlı birləşmələrinə qarşı apardığı mübarizə zamanı həm bölgəni yaxşı tanıyan, həm də danışıqlar aparmağın incəliklərinə bələd olan qubernator Xosrov bəy Sultanovun rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü qorunmuşdur: Erməni Milli Şurasının separatçı çıxışlarına baxmayaraq, Cümhuriyyət hökuməti onları Şuşadan və Qarabağdan çıxara bilmiş, qalan ermənilər isə Cümhuriyyət hakimiyyətini qəbul etmişlər [Məmmədova, 2006, 65-114].

Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə ermənilər Qarabağda Şuşanın siyasi rolunu azaltmaq istəsələr də, 1969-cu ildən etibarən Heydər Əliyevin təşəbbüsü ilə şəhər yenidən dirçəlişə başlamış, tarix-memarlıq qoruğu elan edilmişdir [Məmmədov, 2008, s.25-45, 300-380].

90-cı illərdə əsasən demək olar ki, bütün mübarizə Şuşada təşkil edilmişdi. Lakin şəhər davamlı olaraq erməni silahlılarının hücumlarına məruz qalmış, mühasirəyə alınmış, 1992-ci ilin 8 mayında Ermənistan tərəfindən işğal olunmuşdur [Məmmədov, 2008, s.456-467]. Şuşanın müdafiəsində canından keçən - Sadıq Hüseynov, Ramiz Qəmbərov, Nizami Məmmədov, Rizvan Teymurov, Mehman Sayadov və Albert Aqarunov və digər qəhrəmanlar milli yaddaşımızda Şuşanın simvolu kimi qalmışlar. 2020-ci il sentyabrın 27-də başlayan 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun həyata keçirdiyi misilsiz Şuşa əməliyyatı nəticəsində şəhər azad edilmişdi. Bu döyüş müasir hərb tarixində piyada qüvvələrin, xüsusi təyinatlıların və əsgər rəşadətinin parlaq nümunəsi kimi qiymətləndirilmişdir. Şuşanın azad edilməsi Ermənistanı kapitulyasiyaya məcbur etmiş, müharibəyə son qoymuşdur [Prezident.az, 2020; Zeynalov & Muxtarova, s.315-325]. Bu qələbəni yaşadanlar tarixə "Şuşa fatehi" adı ilə həkk edildi.

Şuşa bu gün təkcə mədəniyyət paytaxtı deyil, həm də Azərbaycan xalqının tarixi iradəsinin, milli birliyinin və hərbi qüdrətinin simvoludur.

**4.Qarabağ müharibələrində Gəncə şəhərinin müqavimət tarixi**

Gəncə şəhəri Azərbaycan tarixində erməni silahlı birləşmələrinin hücumlarına qarşı mübarizənin mühüm mərkəzlərindən biri kimi çıxış etmişdir. 1905–1906-cı illərdə baş verən toqquşmalar zamanı şəhər erməni "Daşnaksütyun" silahlı dəstələrinin hədəfinə çevrilmiş, yerli müsəlman əhali özünümüdafiə dəstələri yaradaraq qəhrəmanlıqla müdafiə olunmuşlar. Bu dövrdə dünyada və cəmiyyətdə baş verən inqilabi proseslərlə yanaşı ermənilərin hücumları Gəncədə milli şüurun formalaşmasına mühüm təsir göstərmişdi. Erməni hücumlarına qarşı mübarizə ziyalılar və qaçaqlar tərəfindən təşkil edilmişdir. Bu məqsədlə "Difai" təşkilatı yaradılmışdır [Quliyeva, 2021, s.67-75].

1918-ci ildə Gəncə xalqı silahlı müqavimət göstərərək şəhərin daşnak-bolşevik dəstələrinin əlinə keçməsinin qarşısını almışdır. Bununla yanaşı, Qarabağ və Bakı ermənilərinin bolşeviklərlə birlikdə Azərbaycanın digər bölgələrini tutmasına qarşı tədbirlər görməyə çalışırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) qurulması ilə şəhər dövlətin ilk paytaxtı olmuş, Bakı işğaldan azad edilənə qədər siyasi və hərbi baxımdan mühüm mərkəz kimi fəaliyyət göstərmiş, erməni silahlı birləşmələrinin Qarabağ və Zəngəzura hücumlarına qarşı mübarizədə ön sırada dayanmışdır [Baykara, 1992]. Batum müqaviləsinə əsasən Azərbaycana Osmanlıdan köməyə gələn Qafqaz İslam Ordusunun əsas qərargahı da bir müddət Gəncə şəhəri olmuşdur. Qafqaz İslam Ordusu ilk döyüşünü də məhz Gəncə ermənilərinin tərkisilah edilməsi üçün olmuşdur [Süleymanov, 2014, s.55, 58, 76-80].

Şəhər 90-cı illərdə Azərbaycan ordusunun əsas hərbi bazalarından biri olmuş, həmçinin könüllülərin cəbhəyə göndərilməsi və müdafiə qüvvələrinin təşkilində mühüm rol oynamışdır. Şəhər, eyni zamanda arxa cəbhə kimi müxtəlif loqistik, humanitar və təşkilati funksiyaları yerinə yetirmişdir. Gəncə ictimaiyyəti və könüllüləri həm 90-cı illərdə, həm də 2020-ci ildə Vətənin müdafiəsinə böyük fədakarlıqla qoşulmuşlar. Vətən müharibəsi (2020) zamanı Gəncə Ermənistan tərəfindən bir neçə dəfə raket hücumuna məruz qalmış, bu hücumlar nəticəsində 26 nəfər həlak olmuş, 100-dən çox insan yaralanmışdır. Bu fakt bir daha Gəncənin həm psixoloji, həm də strateji baxımdan hədəf seçildiyini göstərir. Gəncə sakinləri bu dövrdə böyük mətanət və həmrəylik nümayiş etdirərək mübarizə ruhunun daşıyıcısına çevrilmişlər.

Tarix boyu müxtəlif mərhələlərdə mübarizə və müqavimətin önündə gedən Gəncə, bu gün də Azərbaycan xalqının milli düşüncənin və milli dəyərlərin qorunduğu əsas mərkəzlərindən biri, kollektiv yaddaşda qəhrəmanlıq simvolu kimi yaşayır.

**5.Ağdam şəhərinin erməni faşizminə qarşı mübarizəsi və Qarabağ müharibələrində iştirakı**

Ağdam şəhəri Qarabağ müharibələri zamanı ön cəbhə və Azərbaycan xalqının mübarizəsinin əsas strateji mərkəzlərindən biri olmuşdur. Ərazi düzən Qarabağdan dağlıq ərazilərə keçid üçün əsas mərkəz idi. XX əsrin əvvəllərində ermənilərə qarşı mübarizə mərkəzlərindən biri olduğuna görə "Difai" partiyasının burada da komitəsi fəaliyyət göstərirdi [Əzizov, 2009, s.59-60, 76]. 1918-ci ildə Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun Qarabağ hərəkatında, həmçinin 1919-cu il və 1920-ci il döyüşləri zamanı da Ağdam əsas qərargahlardan, ordunun hərəkət mərkəzlərindən biri olmuşdur. Ağdam bu missiyasını 90-cı illərdə davam etdirmişdir. Bu səbəbdən Ermənistan silahlı qüvvələrinin əsas hücum istiqamətlərindən biri olmuş, 1993-cü ilin iyulunda şəhər tamamilə işğal edilmiş və dağıdılmışdır. Vətən müharibəsindən (2020) sonra Ağdam azad edilmiş və şəhərin bərpasına başlanmışdır. 90-cı illərdə yerli əhalidən Allahverdi Bağırov, Şirin Mirzəyev, Asif Məhərrəmov kimi cəsarətli insanların rəhbərliyi ilə təşkil olunmuş müdafiə batalyonları rayonun müdafiəsində həlledici rol oynamışdır. Rəsmi məlumata görə, rayon müharibədə 5823 şəhid vermiş, ümumi itkilərin sayı 6 mindən çox olmuşdur [Nağı, 2009, s.33, 40-44]. Qarabağ müharibəsi dövründə ən böyük məzarlıq burada yerləşirdi [Ağdam rayon İcra

 

Hakimiyyəti, 2022]. Xocalı soyqırımı zamanı Ağdam faciənin ilk şahidi, xilas olanlara və əsirlərə ilk yardım göstərən şəhər olmuşdur. Qarabağ müharibəsinin ən dəhşətli hadisəsi - Xocalı soyqırımının şəhidləri də Ağdamda dəfn edilmişdir. Əhalinin böyük hissəsi isə məcburi köçkün vəziyyətinə düşmüşdür. Vətən müharibəsi (2020) zamanı rayonun yetirmələri müxtəlif cəbhələrdə qəhrəmancasına vuruşmuşlar.

Ağdam rayonu yalnız coğrafi bir bölgə deyil, eyni zamanda Azərbaycan xalqının erməni faşizminə qarşı mübarizəsini, erməni vəhşiliklərinin dəhşətlərini, şəhidlik ruhunu, milli kimliyini və kollektiv müqavimət iradəsini təcəssüm etdirən mühüm məkan kimi tarixə düşmüşdür. Hazırda şəhər yenidən qurulur, urbisid aradan qaldırılır, insanlar qəhrəmanlıqla mübarizə apardıqları torpaqlarına geri dönürlər.

**6.Nəticə**

Erməni faşizminin həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinə qarşı Azərbaycan xalqının müxtəlif dövrlərdə göstərdiyi müqavimət prosesi göstərir ki, bu mübarizənin mərkəzində strateji əhəmiyyətə malik şəhərlər dayanmışdır. Həm XIX əsrin sonu - XX əsrin əvvəllərində, həm də müasir dövrlərdə Şuşa, Gəncə və Bakı kimi şəhərlər mübarizə və dirənişin təşkil olunduğu əsas mərkəzlər kimi çıxış etmişdir. 1905–1906 və 1918–1920-ci illərdə bu şəhərlər əhalinin təşkilatlanması və milli müqavimətin formalaşmasında mühüm rol oynamışdır.

XX əsrin 90-cı illərində hərbi əməliyyatların genişlənməsi müqavimət mərkəzlərinin sayını artırmış, Gəncə və Şuşa şəhərləri ilə yanaşı Ağdam, Tərtər, Bərdə və Beyləqan şəhərləri həm döyüşçülərin toplandığı, həm də humanitar yardım mərkəzləri kimi ön plana çıxmışdır. 2020-ci ildə Vətən müharibəsi zamanı Azərbaycan xalqı, dövləti və ordusu milli həmrəylik nümayiş etdirərək düşmənə qarşı birləşmiş, 44 günlük döyüşlər ərzində Tərtər, Gəncə və Bərdə şəhərləri mütəmadi olaraq raket hücumlarına məruz qalmışdır. Bu fakt onların strateji və psixoloji baxımdan hədəf seçildiyini göstərir. Xüsusilə 90-cı illərdə əsas mübarizə mərkəzləri olan Şuşa və Ağdam şəhərləri düşmənin hədəfinə çevrilmişdir. Bu şəhərlərin işğalı Azərbaycanın müdafiə qabiliyyətinə ağır zərbə vurmuşdu. 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması müharibənin taleyini müəyyən etmiş, işğal altında olan digər ərazilərin döyüşsüz qaytarılması ilə nəticələnmişdir. Şuşa təkcə hərbi-strateji məkan deyil, eyni zamanda milli yaddaş, qələbə və müqavimət simvoludur.

Tədqiqat göstərdi ki, bu şəhərlər yalnız coğrafi və hərbi baxımdan deyil, həm də tarixi və mənəvi baxımdan müqavimət ideyasının daşıyıcıları olmuşlar. Şuşa, Ağdam və Xocalı milli kimliyin formalaşmasında, şəhidlik və kollektiv travma yaddaşının qurulmasında simvolik məkanlara çevrilmişdir. Şuşa, Xocalı və Ağdam kimi şəhərlər işğaldan azad edildikdə "milli qürur" mərkəzləri kimi qəbul edildilər. Gəncə tarix boyu müxtəlif mərhələlərdə dirəniş və mübarizə ocağı olmuş, 2020-ci ildə baş verən raket hücumları ilə bu simvolik dəyəri bir daha təsdiqləmişdir. Tərtər isə həm XX əsrin əvvəllərində, həm də sonlarında düşmənin fasiləsiz hücumlarına məruz qalaraq müqavimət rəmzinə çevrilmişdir.

Azərbaycan tarixşünaslığında bu şəhərlərin hər biri müxtəlif dövrlərdə ayrıca şəkildə tədqiq olunsa da, onların müqavimət mərkəzləri kimi sistemli müqayisəli təhlili aparılmamışdır. Bu araşdırma həm bu boşluğu doldurur, həm də "qəhrəman şəhər" konsepsiyasına milli kontekstdə yeni baxış imkanı yaradır.

Sonda əlavə etmək lazımdır ki, bu tədqiqat Qarabağ şəhərlərinin sosial yaddaşda rolu və müasir kollektiv şüurda təsviri, media və ədəbiyyatda bu şəhərlərin simvolik obrazlarının tədqiqi, postmüharibə dövründə mübarizə şəhərlərinin bərpasının ideoloji-siyasi mənaları kimi mövzularda araşdırmalar üçün perspektivlər yaradır.

**7.REFERENCES**

1. Agdam District Executive Power. (2022). *Martyrs of the Patriotic War*. Retrieved from http://agdam-ih.gov.az/az/veten-muharibesi-sehidleri.html (in Azerbaijani)

2. Azertag. (2023, January 20). *A march to the Agdam Martyrs' Alley was organized – VIDEO*. Retrieved from https://azertag.az/xeber/agdam_sehidler_xiyabanina_yurus_teskil_olunub__video-2453732 (in Azerbaijani)
3. Azizov, E. (2009). *Difai: preliminary historical conditions and causes of the Armenian–Azerbaijani conflict in the early 20th century.* CBC PP. https://ebooks.az/ru/book/8C3O9lsk (in Azerbaijani)
4. Balayev, A., & Mirza, R. (2000). *The January 20 events: Documents, positions, comments (1990–2000).* Chashioghlu. https://ebooks.az/az/book/CxA2ysQV (in Azerbaijani)
5. Baykara, H. (1992). *History of the Azerbaijani independence struggle.* Azerneshr. https://lib.az/users/1/upload/files/Huseyn_Bakkara_-_Azerbaycan_Istiklal_Mucadelesi_Tarihi.pdf (in Azerbaijani)
6. Guliyeva, S. (2021). The Struggle of the Azerbaijan People Against the Attacks of the Armenians in the Book of Hussein Baykara "The History of the Struggle of Azerbaijan for Independence". *News of Baku University: series of HUMANITARIAN SCIENCES,* (2), 66-76. https://anl.az/down/meqale/bdu_humanitarelm/2021/02/06(meqale).pdf (in Azerbaijani)
7. Isgandarov, A. J. (2006*). The historiography of the Turkic-Muslim genocide problem in Azerbaijan: 1918–1920.* Adiloglu. http://web2.anl.az:81/read/page.php?bibid=9284&pno=1 (in Azerbaijani)
8. Mahmudov, Y. M., & Shukyurov, K. K. (2005*). Karabakh: Real history, facts, documents.* Tahsil. ISBN: 9789952423006. https://ebooks.az/az/book/QJMvWID0 (in Azerbaijani)
9. Mammadov, N. (2005*). The Shusha district of Azerbaijan in 1900–1917.* ADPU Publishing House. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000007223 (in Azerbaijani)
10. Mammadov, N. (2008). *Public-political life, economic and cultural development in the Nagorno-Karabakh Autonomous Region of the Azerbaijan SSR (1923–1991).* Tahsil Publishing. https://ebooks.az/az/book/k59sXLK7 (in Azerbaijani)
11. Mammadova, H. (2006*). The political situation in Upper Karabakh during the Azerbaijan Democratic Republic: The rise of Armenian terrorism (1918–1920).* Nagil Evi Publishing House. https://ebooks.az/az/book/7RDsIxBn (in Azerbaijani)
12. Mustafa, N. (2022*). Armenian terror and massacres in the Iravan Governorate and Zangezur district (1905–1906).* Elm va Tehsil Publishing. https://ebooks.az/az/book/phymqoz (in Azerbaijani)
13. Mustafa, N., & Arzumanli, V. (1998*). Dark pages of history: Deportation, genocide, displacement.* Qartal Publishing. https://ebooks.az/az/book/tsWnMraS (in Azerbaijani)
14. Nagi, A. (2009). *The Karabakh war: A brief history.* MBM-R. https://anl.az/el/Kitab/2015/Azf-281128.pdf (in Azerbaijani)
15. President.az. (2017, March 31). *Speech by President Ilham Aliyev at a meeting with a group of servicemen on the anniversary of the April victories of the Azerbaijani Army.* Retrieved from https://president.az/articles/23254/print (in Azerbaijani)
16. President.az. (2020, November 8). *President Ilham Aliyev and First Lady Mehriban Aliyeva visited the Alley of Honor and the Alley of Martyrs.* Retrieved from https://president.az/en/articles/view/45756 (in Azerbaijani)
17. Suleymanov, M. (2014). *Nuri Pasha and his comrades.* Baku. https://ebooks.az/az/book/CVkjIHSc (in Azerbaijani)
18. Zeynalov, I., & Muxtarova, A. (Eds.). (2021). *Karabakh is Azerbaijan! The epic of victory.* Baku: Azeri poligrafiya, 600 p. (in Azerbaijani)

## ƏDƏBİYYAT

1. Ağdam Rayon İcra Hakimiyyəti. (2022). *Vətən müharibəsi şəhidləri.* Alınmışdır: http://agdam-ih.gov.az/az/veten-muharibesi-sehidleri.html
2. AzərTAc. (2023, yanvar 20). *Ağdam Şəhidlər xiyabanına yürüş təşkil olunub – VİDEO.* Alınmışdır: https://azertag.az/xeber/agdam_sehidler_xiyabanina_yurus_teskil_olunub___video-2453732
3. Əzizov, E. (2009). *Difai: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri.* CBC PP. https://ebooks.az/ru/book/8C3O9lsk
4. Balayev, A., & Mirzə, R. (2000). *20 Yanvar hadisələri: Sənədlər, mövqelər, şərhlər (1990–2000)*. Çaşıoğlu. https://ebooks.az/az/book/CxA2ysQV
5. Baykara, H. (1992). *Azərbaycan istiqlal mübarizəsi tarixi.* Azərnəşr. https://lib.az/users/1/upload/files/Huseyn_Bakkara_-_Azerbaycan_Istiklal_Mucadelesi_Tarihi.pdf
6. Quliyeva, S. (2021). Hüseyn Baykaranın "Azərbaycan istiqlal mübarizəsi tarixi" əsərində Azərbaycan xalqının erməni hücumlarına qarşı mübarizəsi. *Bakı Universiteti Xəbərləri: Humanitar Elmlər Seriyası*, (2), 66-76. https://anl.az/down/meqale/bdu_humanitarelm/2021/02/06(meqale).pdf
7. İsgəndərov, A. C. (2006). *Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. 1918–1920.* Adiloğlu. http://web2.anl.az:81/read/page.php?bibid=9284&pno=1
8. Mahmudov, Y. M., & Şükürov, K. K. (2005). *Qarabağ: real tarix, faktlar, sənədlər*. Təhsil. https://ebooks.az/az/book/QJMvWID0
9. Məmmədov, N. (2005). *Azərbaycanın Şuşa qəzası 1900–1917-ci illərdə*. ADUP-nun mətbəəsi. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000007223
10. Məmmədov, N. (2008). *Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923–1991).* Təhsil. https://ebooks.az/az/book/k59sXLK7
11. Məmmədova, H. (2006). *Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918–1920).* Nağıl Evi nəşriyyatı. https://ebooks.az/az/book/7RDsIxBn
12. Mustafa, N. (2022). *Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905–1906).* Elm və Təhsil. https://ebooks.az/az/book/phymqoz
13. Mustafa, N., & Arzumanlı, V. (1998). *Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq.* Qartal. https://ebooks.az/az/book/tsWnMraS
14. Nağı, A. (2009). *Qarabağ müharibəsi (Qısa tarix)*. MBM-R. https://anl.az/el/Kitab/2015/Azf-281128.pdf
15. Prezident.az. (2017, mart 31). *İlham Əliyevin Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçilərlə görüşdə nitqi.* Alınmışdır: https://president.az/articles/23254/print
16. Prezident.az. (2020, noyabr 8). *İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında oldular.* Alınmışdır: https://president.az/az/articles/view/45756
17. Süleymanov, M. (2014). *Nuri paşa və silahdaşları.* Bakı. https://ebooks.az/az/book/CVkjIHSc
18. Zeynalov, İ., & Muxtarova, Ə. (Red.). (2021). *Qarabağ Azərbaycandır! Zəfər epopeyası.* Bakı: Azəri poliqrafiya, 600 s.